*"Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır".*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 16 iyul 2014-cü il | № 54 (1871) | Qiyməti 25 qəpik


# Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya rəsmi səfəri



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 13-də İtaliya Respublikasına rəsmi səfərə getmişdir.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Romadakı məşhur "Villa Borghese" parkında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini ziyarət etmiş, önünə gül dəstəsi qoymuşdur.

Bu abidə "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 dekabr tarixli sərəncamına əsasən ucaldılmışdır. Həmin sərəncama əsasən Nizami Gəncəvinin yubileyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə 2012-ci ilin aprelində abidənin açılışı olmuşdur.

* * *

İtaliya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də Romadakı "Altare dell Patria" memorial kompleksində naməlum əsgər abidəsini ziyarət etmişdir.

Burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev naməlum əsgər abidəsinin önünə əklil qoydu.

* * *

İyulun 14-də Romada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Prezidenti Corco Napolitanonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə İtaliya arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın uğurlu inkişafından məmnunluq ifadə edildi. Ölkələrimiz arasında əlaqələrin Avropa İttifaqı-Azərbaycan əməkdaşlığı baxımından önəmi vurğulandı. Azərbaycanın Avropa Şurasında, İtaliyanın Avropa İttifaqında sədrliyi dövründə səylərin əlaqələndirilməsinin vacibliyi qeyd edildi.

Söhbət zamanı energetika sahəsində əməkdaşlığın uğurlu inkişafı vurğulandı, ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birinə qarşılıqlı dəstək verdiyi bildirildi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan-İtaliya ikitərəfli münasibətlərinin müxtəlif aspektləri və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparıldı.

* * *

İyulun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Romada İtaliya Senatının sədri Pietro Qrasso ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə İtaliya arasında strateji əlaqələrin müxtəlif sahələrdə uğurla inkişafından məmnunluq ifadə olundu. İtaliyanın ölkəmizin əsas ticarət tərəfdaşı olduğu vurğulandı, iqtisadi əməkdaşlığımızın şaxələndirilməsinin önəmi qeyd edildi. Azərbaycanda çoxsaylı italyan şirkətlərinin fəaliyyət göstərməsinin əlaqələrimizin inkişafına töhfə verdiyi bildirildi. Ölkələrimiz arasında əlaqələrin Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının inkişafında mühüm rol oynadığı qeyd olundu. Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə, İtaliyanın isə Avropa İttifaqına sədrliyi dövründə birgə fəaliyyətin həyata keçirilməsinə əminlik ifadə edildi.

İtaliya Senatının sədri ölkəsinin Azərbaycana Qafqazda sabitliyin təminatçısı kimi yanaşdığını bildirdi.

Prezident İlham Əliyev İtaliya Senatının sədrinə Ermənistanın Azərbaycana hərbi təcavüzünün nəticələri və Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti barədə məlumat verdi.

Görüşdə ölkələrimiz arasında münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin, o cümlədən dostluq qruplarının rolunun önəmi qeyd olundu, bu sahədə gələcək əməkdaşlığın daha da möhkəmləndirilməsinin əhəmiyyəti vurğulandı.

* * *

İyulun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Romanın "Mercati di Traiano" muzeyində olmuş, burada şəhərin meri İqnatsio Marino ilə görüşmüş və İtaliya jurnalistlərinə müsahibə vermişdir.

Prezident İlham Əliyevi Roma şəhərinin meri İqnatsio Marino qarşıladı.

Dövlətimizin başçısına Romanın "Mercati di Traiano" muzeyi barədə ətraflı məlumat verildi. Bildirildi ki, nadir eksponatların qorunduğu bu muzey qədim Roma tarixinin öyrənilməsində müstəsna əhəmiyyətə malikdir. Muzeyin yerləşdiyi ərazidə müxtəlif vaxtlarda aparılan arxeoloji qazıntılar bir çox nadir memarlıq nümunələrini üzə çıxarıb. Digər tərəfdən, bu qazıntılar qədim dövr tarixinin müxtəlif mərhələlərinin tədqiqinə geniş imkanlar açıb. Ona görə də "Mercati di Traiano" muzeyinin əhəmiyyəti heç vaxt azalmır, onun ümumbəşəri dəyəri getdikcə daha da artır.

Daha sonra keçirilən görüşdə Roma şəhərinin meri İqnatsio Marino Azərbaycan ilə İtaliya arasında siyasi, iqtisadi, enerji sahələrində əlaqələrin genişləndiyini bildirdi, ölkəmizdə gedən inkişaf proseslərinin məmnunluq doğurduğunu diqqətə çatdırdı. O, Azərbaycan ilə mədəniyyət sahəsində əlaqələrin inkişafında maraqlı olduqlarını bildirdi. Bunun ölkələrimizin və xalqlarımızın bir-birini daha yaxından tanımaları üçün yaxşı imkan yaratdığını dedi. Roma şəhərinin meri Heydər Əliyev Fondu ilə geniş əməkdaşlıq əlaqələrinə toxunaraq Fondun dünyada ümumbəşəri dəyəri olan bir çox mədəni və humanitar layihələri uğurla həyata keçirdiyindən xəbərdar olduğunu bildirdi. İqnatsio Marino Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ilə Romada keçirilən görüşünü xatırladı, Heydər Əliyev Fondu ilə birgə reallaşdırılan layihələrin əhəmiyyətinə toxundu. "Mercati di Traiano" muzeyinin ərazisində arxeoloji qazıntı işlərinin aparılmasında Heydər Əliyev Fondunun xidmətlərini yüksək qiymətləndirən mer buna görə təşəkkürünü çatdırdı.

Prezident İlham Əliyev bu memarlıq və mədəniyyət mirasının təkcə Romaya deyil, bütün bəşəriyyətə aid olduğunu dedi, arxeoloji qazıntı işlərində Azərbaycanın da iştirak etməsindən fərəh hissi keçirdiyini bildirdi. "Düşünürəm ki, bu, bizim ikitərəfli əlaqələrimizin vacib elementidir", - deyən dövlətimizin başçısı mədəniyyət sahəsində əlaqələrin inkişafının xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırdı. Prezident İlham Əliyev İtaliya tarixinin və mədəniyyətinin Azərbaycanda yaxşı tanındığını, ölkəmizin mədəniyyətinin də İtaliyada təbliğinin mühüm əhəmiyyətə malik olduğunu qeyd etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin çox yüksək səviyyəyə çatdığını deyərək İtaliyanın Avropada və dünyada Azərbaycanın əsas ticarət tərəfdaşı olduğunu bildirdi. Hazırda tərəfdaşlığımızın enerji sektorunda uğurla həyata keçirildiyini, Avropanın enerji xəritəsini dəyişəcək TAP layihəsinin Azərbaycan üçün də böyük önəm təşkil etdiyini deyən dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, əməkdaşlıq əlaqələri gələcəkdə infrastruktur, tikinti, yüksək texnologiyalar və iqtisadiyyatın digər sahələrini də əhatə edəcəkdir.

Görüşdən sonra Prezident İlham Əliyev muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Daha sonra dövlətimizin başçısı İlham Əliyev Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Roma şəhər meriyası arasında sazişin imzalanması mərasimində iştirak etdi.

Bu saziş "Mercati di Traiano" muzeyinin yerləşdiyi ərazidə arxeoloji qazıntı işlərinin aparılmasına maliyyə vəsaitinin ayrılmasını nəzərdə tutur.

Sonra İqnatsio Marino Roma şəhərinin rəmzi olan xatirə hədiyyəsini Prezident İlham Əliyevə təqdim etdi.

Mərasim başa çatdıqdan sonra dövlətimizin başçısı və Roma şəhərinin meri arxeoloji qazıntı işlərinin aparılacağı ərazini, həmçinin Roma şəhərinin mənzərəsini seyr etdilər.

Sonda Prezident İlham Əliyev İtaliya jurnalistlərinə müsahibə verdi.

* * *

İyulun 14-də Romada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasının Baş naziri Matteo Renzi ilə görüşü olmuşdur.

Baş nazir Matteo Renzi Prezident İlham Əliyevi qarşıladı.

İtaliya nümayəndə heyəti Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti Baş nazir Matteo Renziyə təqdim olundu.

Görüşdə Azərbaycan ilə İtaliya arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə inkişafından məmnunluq ifadə olundu. Ölkələrimiz arasında əlaqələrin strateji səviyyəyə qalxdığı bildirildi, energetika sahəsində əməkdaşlığın yaxşı perspektivləri olduğu qeyd edildi. Prezident İlham Əliyevin İtaliyaya rəsmi səfərinin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmi vurğulandı. Azərbaycan-İtaliya əlaqələrinin Avropa İttifaqı ilə əməkdaşlıq baxımından əhəmiyyəti qeyd edildi, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

İyulun 14-də Romada Azərbaycan-İtaliya sənədlərinin imzalanması mərasimi olmuşdur.

Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev və İtaliyanın Baş naziri Matteo Renzi tərəfindən "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" qəbul olundu.

"Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında dəniz nəqliyyatı haqqında Saziş"i Azərbaycanın energetika naziri Natiq Əliyev və İtaliyanın infrastruktur, nəqliyyat və telekommunikasiyalar naziri Maurizio Lupi imzaladılar.

"Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi ilə İtaliya Respublikasının İqtisadi İnkişaf Nazirliyi arasında iqtisadi əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın İtaliyadakı səfiri Vaqif Sadıqov və İtaliyanın iqtisadi inkişaf nazirinin müavini Karlo Kalenda imzaladılar.

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə İtaliya Respublikasının Mədəni İrs və Fəaliyyətlər və Turizm Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və İtaliyanın Mədəni İrs və Fəaliyyətlər və Turizm Nazirliyinin dövlət katibi Françeska Barraççiu imzaladılar.

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə İtaliya Respublikası Nazirlər Şurasının Sədrliyinin Regional Məsələlər, Muxtariyyətlər və İdman Departamenti - İdman Ofisi arasında idman əməkdaşlığına dair Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və İtaliya Nazirlər Kabinetinin dövlət katibi Qratsiano Delrio imzaladılar.

**AzərTAc-ın materialları əsasında**

Azərbaycan Prezidenti İlham ƏLİYEV:

## Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir

***Biz bu altı ayda, əlbəttə ki, hərbi məsələlərə xüsusi diqqət göstərmişik. Ordu quruculuğu prosesi uğurla gedir, orduda islahatlar dərinləşir, nizam-intizam artır. Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir, gündən-günə artır.***

AzərTAc xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı giriş nitqində demişdir.

Dövlətimizin başçısı ordu günündə və bu yaxınlarda cəbhə bölgəsində keçirilmiş təlimlərin həm praktiki, həm də gücümüzü nümayiş etdirmək nöqteyi-nəzərindən çox böyük əhəmiyyətə malik məsələ olduğunu diqqətə çatdırmışdır.

Prezident İlham Əliyev demişdir ki, ərazi bütövlüyü beynəlxalq hüququn əsas norma və prinsipidir. Dağlıq Qarabağ münaqişəsi ancaq bu prinsip çərçivəsində öz həllini tapa bilər.

## Müdafiə naziri Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi attaşelərini qəbul edib

***İyulun 14-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikası Silahlı Qüvvələrinin xarici ölkələrdə və beynəlxalq təşkilatlarda akkreditə olunmuş hərbi attaşe və hərbi nümayəndələrini qəbul edib.***

Müdafiə naziri görüşün əhəmiyyətini qeyd edərək, Silahlı Qüvvələrdə aparılan islahatlar, görülən işlər, o cümlədən xarici hərbi prioritetlərimiz barədə geniş məruzə ilə çıxış edib.

Sonra xidməti fəaliyyətlər nəzərdən keçirilib, qarşıda duran məqsəd və vəzifələr barədə geniş fikir mübadiləsi aparılıb.

Görüşdə Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov da iştirak edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Azərbaycan-NATO tərəfdaşlığının inkişaf perspektivləri müzakirə edilmişdir

***İyulun 8-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov NATO baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturay ilə görüşmüşdür.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AzərTAc-a daxil olan məlumata görə, Elmar Məmmədyarov Azərbaycanın NATO ilə əməkdaşlığa xüsusi əhəmiyyət verdiyini bildirmiş, ölkəmizin Alyansın Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı və Planlaşdırma və Analiz Prosesi kimi tərəfdaşlıq mexanizmlərində fəal iştirak etdiyini söyləmişdir. Nazir əlavə etmişdir ki, NATO ilə əməkdaşlıq Azərbaycan Respublikası Silahlı Qüvvələrinin islahatı prosesinə və orduda müasir standartların tətbiqinə töhfəsini vermişdir.

Ceyms Appaturay fəal tərəfdaş dövlət kimi Azərbaycanın NATO-nun Əfqanıstanda keçirilən əməliyyatına və beynəlxalq təhlükəsizliyə töhfəsinin Alyans tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırmışdır.

Görüşdə Azərbaycan ilə NATO arasında tərəfdaşlığın inkişaf perspektivləri və NATO-nun qarşıdan gələn Uels Zirvə toplantısının gündəliyində duran aktual məsələlər üzrə fikir mübadiləsi aparılmışdır.

*Ön xətdən reportaj*

# Zirvələri qoruyan oğullar



***Növbəti gün və növbəti təmas xətti... Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsinə məxsus döyüş postundayıq...***

***Bu döyüş postunda olmaq həm maraqlı, həm də həyəcanlı idi. Günortaya yaxın yola düşürük. Yol yoldaşım, şəxsi heyətin təlim-tərbiyəsi ilə məşğul olan məsul zabitlərdən mayor Rüstəm Məmmədovdur.***

***Öyrənirəm ki, döyüş postu dəniz səviyyəsindən 2262 metr yüksəklikdə yerləşir. Buranı Milli Qəhrəman İsgəndər Aznaurovun şərəfinə "İsgəndər Qalası" adlandırıblar.***

İsgəndər Söhrab oğlu Aznaurov 1956-cı il avqustun 16-da Özbəkistanın Buxara vilayətində anadan olub. Aznaurov 1990-cı ildə ailəsi ilə birlikdə Azərbaycanın Şəmkir rayonu Kür qəsəbəsinə köçüb. O, 1992-ci ilin aprelində könüllü olaraq ordu sıralarına daxil olub. "N" hərbi hissəsinin artilleriya üzrə komandir müavini təyin edilib, baş leytenant kimi Gədəbəy bölgəsində vuruşub və əfsanəvi qəhrəman kimi ad çıxarıb. Onun səyi ilə Şınıx istiqamətində düşmən mövqelərinə ağır zərbə vurulub, düşmənin onlarla topu sıradan çıxarılıb. Qəhrəman Nazdıxanyal döyüşündə əsl qəhrəmanlıq göstərib, düşməni geri çəkilməyə məcbur edib. O, 1993-cü il aprelin 18-də növbəti döyüşlərin birində qəhrəmanlıqla həlak olub.

Mərhum Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Budur, 2262 metr yüksəklikdəyik...

Bizi baş leytenant Mübariz Xələfi qarşılayır. Döyüş postu barədə ətraflı məlumat verən zabitin simasında təbəssüm sezilir, deyəsən, bizi görməyinə şad oldu. Hal-əhval tutduqdan sonra söhbətə başlayırıq...

- **Yoldaş baş leytenant, yüksəklikdə xidmət etmək çətin deyil?**

- Burada bizə heç nə çətin görünmür. Çünki burda torpaqlarımızı qoruyuruq. İsti-soyuq bilmədən Vətənin keşiyində dayanırıq. Biz burada işğal altında olan torpaqlarımızı azad etmək arzusu ilə yaşayırıq.

Baş leytenant özü haqqında da məlumat verib deyir:

- Ağdam rayonunda anadan olmuşam. Dünyaya göz açdığım rayon 1993-cü il iyulun 23-də Ermənistan tərəfindən işğala məruz qalıb. Ağdam sözü qədim türk dilində "kiçik qala" deməkdir. Tarixi məlumatlara görə, uzaq keçmişdə bu ərazidə yaşamış türkdilli qəbilələr özlərini müdafiə etmək üçün kiçik qalalar tikirdilər. Zaman keçdikcə bu şəhərin adının mənası dəyişmişdir. XVIII əsrin birinci yarısında Pənahəli xan bu şəhərdə özü üçün ağ daşdan



imarət tikməyi əmr etmişdir. Həmin imarət uzun müddət ətraf kəndlərin sakinləri üçün bir növ oriyentirə çevrilmişdir. Bu mənada, "Ağdam" - günəş şüaları ilə nurlanmış işıqlı, ağ ev deməkdir. Mən istəyirəm ki, işıqları sönmüş o evlərdə yenidən işıqları yandırım.

- **Yaradılmış şərait və tabeliyinizdə olan əsgərləriniz haqqında fikirlərinizi də öyrənmək istərdim.**

- Belə bir yüksəklikdə xidmət etmək üçün hər cür şəraitimiz var. Yuxarı komandanlıq daim problemlərimizlə maraqlanır, hər hansı ehtiyacımız olarsa, qısa vaxtda bunu həll etməyə çalışır. Əsgərlərimdən isə çox razıyam. Hər biri nizam-intizamlı və məsuliyyətlidir. Silah-sursatla rəftar və təhlükəsizlik qaydalarına riayət edirlər.

Postu gəzmək və döyüş növbəsində olan əsgərlərlə görüşmək üçün səngərlərə yollandıq. Növbədə olduğu zaman heç bir hadisə baş vermədiyini məruzə edən Əsgər Abdullayevlə söhbətə başlayırıq...

- 1-ci motoatıcı taqımda pulemyot manqasının komandiriyəm, - deyir əsgər. - Artıq 18 aydır hərbi xidmətdəyəm. Doğmalarımın yanına qayıtmağıma sayılı günlər qalıb. Lakin buna sevinə bilmirəm. Uşaqlıqdan forma geyinmək, əsgər olmaq arzusunda olduğum üçün ordu sıralarına qatılanda sevinirdim. Bu arzuma çatdım, amma artıq ehtiyata buraxılıram. Və



əmin olun ki, Ali Baş Komandan döyüş əmrini verən kimi burada qazandığım təcrübə ilə döyüşə qatılacağam.

Növbəti həmsöhbətim isə əsgər Şöhrət Qubadovdur. 1-ci motoatıcı taqım, 3-cü manqada baş atıcı vəzifəsində xidmət edən əsgər 13 aydır ki, hərbi xidmətdə olduğunu bildirir. Əli tətikdə, gözü düşmən istiqamətində olan əsgərimizdən diqqətlə hara baxdığını soruşuruq...

- Bildiyiniz kimi, buradan ermənilərin yaşayış məntəqəsi görünür. Bu rayon Çəmbərək adlanır. Buradan müşahidə cihazları ilə qəsəbəni aydın görmək olur.

Qeyd edək ki, Çəmbərək bölgəsi Ermənistanın Geğarkunik vilayətinin tərkibindədir. 1937-ci il dekabrın 31-də yaradılıb. Həmin ilə qədər Azərbaycanın tərkibində olub. Ərazisi 697 kv. km-dir. Rayon mərkəzi Ağstafaçay çayının qolu olan Getik çayının sahilində yerləşən Qırmızıkənd, dəyişdirilmiş adı Mixaylovka, Krasnoselsk qəsəbəsidir. Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 125 km-dir. Rayon ərazisində həmçinin malakanlar da yaşayırlar. Onlar bu ərazilərə XVIII əsrin əvvəllərində Çar Rusiyası tərəfindən köçürülüblər. 1918-1919-cu illərdə bu ərazilər də ermənilərin hücumlarına məruz qalıb. 1920-ci iln sonuna kimi Gəncə quberniyasının Qazax qəzasının Çəmbərək nahiyyəsi kimi Azərbaycanın tərkibində mövcud olan Çəmbərək rayonunun ərazisində o vaxtlar cəmi iki erməni kəndi vardı: Çəmbərək və Qoturbulaq. Buraya ermənilər İrəvan xanlığı Çar Rusiyası tərəfindən işğal edildikdən sonra Anadoludan köçürülüb. SSRİ dövründə isə erməniləri bu yerlərə köçürməklə daha üç erməni kəndi yaradıldı: Yeni Başkənd, Martuni və Orconokidze. Çəmbərəkin Azərbaycandan qoparılması Sovet dövrü ilə bağlıdır. Belə ki, Qərbi Azərbaycanda Ermənistan Respublikası qurulduqdan sonra 1920-ci ildə Göyçə və Qaraqoyunlu Azərbaycandan alınaraq Ermənistana verildi. Bu, 6000 kv. km-lik bir ərazi idi. 1938-ci ildə Azərbaycanın Gədəbəy rayonunun Köhnə Başkənd kəndi də yenicə rayon statusu almış Çəmbərək rayonuna tabe edildi.

Çəmbərək rayonunun bir hissəsini də Qaraqoyunlu ərazisi təşkil edir. Əsas hissəsi Çəmbərək rayonunun tərkibinə daxil olan Qaraqoyunlu dərəsi Dilican dərəsi ilə Soyuqbulaq yaylasının arasında yerləşir. Çar Rusiyası dövründə buralar Gəncə quberniyasının Qazax qəzasına daxil olub.

Bu məlumatları oxuculara çatdırmaqda məqsədim odur ki, tarixən Ermənistan adlı dövlət olmayıb. Yalnız sonrakı dövrlərdə böyük dövlətlərin himayəsi ilə bizim ata-baba torpaqlarımızda ermənilər məskunlaşıblar və öz dövlətlərini yaradıblar.

Növbəti postlarda Rəşad Səmədzadə, Əmrah Bağırov və başqa döyüşçülər də xidmətlərindən razılıqlarını, düşmənlə üz-üzə Vətənin keşiyində dayanmağın qürurverici hal olduğunu bildirdilər.

Deyir "Yolçu yolunda gərək". Bizim də yolumuz uzundur. Hava isə qaralmaq üzrədir. Geri dönmək vaxtıdır. Beləcə, bu təmiz havalı, yaşıllığı ilə göz oxşayan dağlardan geri qayıdırıq. Əsgər və zabitlərlə xudahafizləşirik. Onları bu döyüş bölgəsində, düşmənin gülləsi ilə üzbəüz torpaqlarda Allaha əmanət edirik! Qismət olsa, görüşmək diləyi ilə!...

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

İyulun 14-dən 18-dək Oberammerqau şəhərində (Almaniya) Quru Qoşunlarının döyüş hazırlığının qiymətləndirilməsi kursu, iyulun 25-dək Andermatt şəhərində (İsveçrə) təkmilləşdirilmiş yay dağ təlimi kursu, avqustun 1-dək Vişkov şəhərində (Çexiya) komanda və qərargah kursu keçiriləcək.

İyulun 16-dan 29-dək Novo Selo şəhərində (Bolqarıstan) "Platinum Lion" təlimi keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

**13 iyul 2014-cü il.**

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 29 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli, Ağdam rayonunun Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

**14 iyul 2014-cü il.**

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 29 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun ərazisindəki adsız yüksəkliklərdə və Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu, Əlibəyli və Hacıalılı kəndlərində yerləşən mövqelərimizi atəşə tutublar.

Ağdam rayonunun Yusifcanlı, Şıxlar, Baş Qərvənd, Mərzili, Sarıcalı, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı, Aşağı Veysəlli, Xocavənd rayonunun Kuropatkino, Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

**15 iyul 2014-cü il.**

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 19 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının İcevan və Noyemberyan rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimizi atəşə tutublar.

Füzuli rayonunun Qorqan, Aşağı Veysəlli, Aşağı Əbdürrəhmanlı, Ağdam rayonunun Mərzili, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında və Goranboy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# MDB ölkələrinin ekspertləri Birliyin üzvü olan dövlət başçılarının Qələbənin 70 illiyi münasibətilə Müraciətinin mətnini tam razılaşdırmışlar

İyulun 10-da Minskdə, Müstəqil Dövlətlər Birliyinin (MDB) İcraiyyə Komitəsində MDB-nin iştirakçısı olan ölkələrin dövlət başçılarının 1941-1945-ci illər Böyük Vətən müharibəsində sovet xalqının Qələbəsinin 70 illiyi münasibətilə Birlik ölkələrinin xalqlarına və dünya ictimaiyyətinə Müraciətinin və bu barədə Qərarın layihələrinin razılaşdırılması üzrə ekspert qrupunun əlavə iclası keçirilmişdir. Bu barədə AzərTAc-a MDB-nin Minskdəki mənzil-iqamətgahının mətbuat xidmətindən məlumat vermişlər.

İclasda Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan, Özbəkistan və Ermənistanın, "Veteranların (pensiyaçıların) İctimai Təşkilatları Birliyi" Beynəlxalq İttifaqının Əlaqələndirmə Şurasının və MDB İcraiyyə Komitəsinin nümayəndələri iştirak etmişlər.

Müraciətin və onun haqqında Qərarın layihələrinə MDB ölkələrindən daxil olan düzəlişləri nəzərdən keçirən ekspertlər sənədləri tam razılaşdırmışlar. Ekspert qrupunun əlavə iclasının materiallarını MDB ölkələrinə, habelə "Veteranların (pensiyaçıların) İctimai Təşkilatları Birliyi" Beynəlxalq İttifaqının Əlaqələndirmə Şurasına göndərmək qərara alınmışdır.

Müraciətin hazırlanması və qəbul edilməsi 1941-1945-ci illər Böyük Vətən müharibəsində sovet xalqının qələbəsinin 70-ci ildönümünün bayram edilməsinə hazırlıq üzrə əsas tədbirlər planında nəzərdə tutulmuşdur. Tədbirlər planını ötən ilin noyabrında Sankt-Peterburq şəhərində MDB ölkələrinin hökumət başçıları imzalamışlar.

Sənəddə faşizmə qarşı mübarizədə həlak olanların xatirəsini müqəddəs tutmaq, döyüşçü məzarlarının, memorial komplekslərin, abidə və obelisklərin, habelə partizanların, könüllülərin və faşist düşərgələri məhbuslarının məzarlarının qorunmasına və səliqəli saxlanılmasına daim diqqət və qayğı göstərmək, Böyük Vətən müharibəsi illərində həlak olmuş döyüşçülərin və dinc vətəndaşların qalıqlarının axtarışını davam etdirmək çağırışı vardır. Bundan əlavə, hazırda həyatda olan cəbhəçilərə qayğı ilə yanaşılması zərurəti vurğulanır, Avropa xalqlarının və bütün dünyanın nasizm üzərində Qələbəyə töhfəsindən danışılır.

Müraciət dünya ölkələrini və xalqlarını nasist hərəkatının qəhrəmanlaşdırılmasına, faşizm ideologiyasının reanimasiyasına, ksenofobiya və irqçiliyin yayılmasına qarşı qəti mübarizə aparmağa, böyüməkdə olan nəslə xalqların faşizmə qarşı mübarizədə böyük hünərinə görə qürur hissi aşılamağa çağırır.

# Uğurlara gedən yol təlimlərdən keçir

***Yaşıllıqlar qoynunda yerləşən bu hərbi hissəyə əvvəllər də gəlib getmişəm. O vaxt yenicə yaşıllıq salınmışdı. Neçə il bundan əvvəl əkilmiş ağaclar artıq xeyli böyüyüb. Ağaclar da adamlar kimidir, tez böyüyürlər. Hərbi hissənin baş meydanında böyük canlanma var idi. Səhər yerbəyeri bir az əvvəl yekunlaşmışdı. Komandirdən yeni tapşırıqlar alan şəxsi heyət xidmət yerinə addımlayırdı.***



Hər dəfə hərbi hissə və birləşmələrə ezamiyyətə gələndə zabit və əsgərlərimizin belə inamlı addımlarını gördükcə ürəyim dağa dönür. Hiss olunur ki, onların döyüş hazırlığı yüksək səviyyədədir. Düşmən təxribata cəhd edən kimi cəsur əsgərlərimiz dəqiq atəş zərbələri ilə onları susdururlar. Hər dəfə düşmən geri çəkilməyə məcbur olur. Erməni qəsbkarları yaxşı bilməlidir ki, Azərbaycan əsgəri öz mövqeyində möhkəm dayanıb, həmişə ayıqsayıqdır. Heç nədən qorxmadan, heç nədən çəkinmədən doğma torpağını, el-obasını qoruyur.

Kapitan Amin Rüstəmovla ön xəttə yola düşdük. Ətrafdakı gözəl mənzərələri seyr etdikcə zövq alırdıq. Hərdən qalın meşəlikdən quşların həzin nəğməsi eşidilirdi.

- Təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq şəxsi heyət müntəzəm təlim-məşq keçir, - dedi zabit Amin Rüstəmov. - Məşğələlərin hər dəqiqəsindən səmərəli istifadə etməyə çalışırıq. Şəxsi heyət dərslərdə fəal iştirak edir. Dərslər yekunlaşdıqdan sonra əsgərlər qazandıqları nəzəri bilikləri təlimlərdə sınaqdan çıxarırlar.

Döngəni burulduqdan sonra geniş bir yaşıllıqla üz-üzə qaldıq. Sanki dərələrin mühasirəsinə düşmüşdük. Zabit və əsgərlər bu gözəl yaşıllıqlar qoynunda təlim keçirdilər.

- Bizim bölüyün əsgərləridir, təlim keçirlər, - dedi kapitan Amin Rüstəmov.

Kəşfiyyatçılara yaxınlaşdıq. Bizi burada üz-gözündən ciddilik yağan gizir Pərviz Ələşrəfov qarşıladı və şəxsi heyətə təlim keçdiyini bildirdi. O bildirdi ki, əsgərlərimiz hərbi bilikləri böyük həvəslə öyrənirlər. Onlar daim məşq edir, silahların sirlərini mənimsəyir və döyüş hazırlıqlarını artırırlar. Kəşfiyyatçı ixtisasının müəyyən çətinliklərinə baxmayaraq, əsgərlər bu sahəyə həvəs göstərirlər. Buna görə də onlar qısa müddət ərzində döyüş sirlərinə yiyələnirlər. Kəşfiyyatçının sağlam və fiziki hazırlığının yüksək olması başlıca şərtlərdən biridir. Bölüyümüzün əsgərləri uğur qazanmağa adət ediblər. Məşğələ prosesində biz əsgərlərə zəruri olan bilik və vərdişləri aşılayırıq. Əsgərlərimiz yaxşı başa düşürlər ki, uğur qazanmağın yolu təlim-məşqlərdən keçir.

Sonra söhbətimi gizirlər Yusif Yusifovla və Güləli Süleymanovla davam etdirdim.



Onlar da təlim-məşqlərdən ətraflı danışdılar. Hər an verilən əmr və tapşırıqları yerinə yetirməyə hazır olduqlarını bildirdilər.

Gizir Pərviz Ələşrəfov söhbətində bildirdi ki, bölükdə xidmət edən əsgərlər qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəlir, daim biliklərini artırmağa çalışırlar. Qazanxan Abdullayev, Vüqar Əlmədətli, Elmir Kərimov, Ceyhun Əlizadə, Rəşad Hüseynov, İntiqam Namazov, Murad Yarıyev, Elsevər Məmmədov və başqa əsgərlər hər cür xoş sözə layiqdirlər.

- Döyüş vərdişlərini və silahların sirlərini öyrənməyə böyük həvəsim var, - dedi əsgər Elsevər Məmmədov. - Xidmətə gəldiyim ilk gündən snayper silahının sirlərini öyrənməyə maraq göstərdim. Dərs və məşğələ prosesində bu silahı dərindən öyrəndim. İndi snayperdən hədəfləri dəqiq vurmağı bacarıram. İstənilən an düşmənin canlı qüvvəsini məhv edərəm. Öyrəndiklərimə görə komandirlərimə borcluyam.

Yaşıllıqlar qoynunda məşğələ yenə də davam edir. Budur, xüsusi geyimdə və görkəmdə olan əsgərlər komandirin verdiyi tapşırıqları yerinə yetirərək təbiətin qoynunda cəld hərəkətlə irəli atılır, əmrləri qüsursuz yerinə yetirməyə cəhd göstərirlər. Belə hazırlıqlı əsgərləri isə qarşıda yalnız böyük uğurlar gözləyir.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

Redaksiyamızın qonağı

# “Komandir əsgərləri ilə güclüdür”

***O, keçmiş Sovet ordusunun desant qoşunlarında xidmət etmiş və SSRİ dövründə hava-desant briqadasının komandiri vəzifəsinədək yüksəlmiş, general vəzifələrində çalışmış nadir azərbaycanlı zabitdir. Hələ kursant ikən göstərdiyi şücaətə görə Sovetlər Birliyinin rəhbərliyi onu "Qızıl Ulduz" ordeni ilə mükafatlandırıb. İlk buraxılışın məzunlarından yalnız onun şəkli bitirdiyi Ryazan Ali Hərbi Desant Məktəbinin muzeyində bu gün də ayrıca nümayiş edilir. Həmyerlimiz Əfqanıstan və Efiopiyada hərbi əməliyyatlarda iştirak edib, Efiopiya ordusunun formalaşmasında yaxından kömək göstərib.***

***Daha bir faktı qeyd etməmək mümkün deyil. İlk dəfə 20 yaşında paraşütlə tullanmış desantçı zabit sonuncu dəfə 74 yaşında belə bir addım atıb. Və bu onun paraşütlə təxminən 1000-1200 metr yüksəklikdən nə az, nə çox - 1506-cı tullanışı idi. Söhbət Azərbaycan Respublikası Əmək, Silahlı Qüvvələr, Hüquq Mühafizə Orqanları Veteranları Şurasının və Silahlı Qüvvələrin Ehtiyatda olan Zabitlər Konfederasiyasının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayevdən gedir.***



General Dadaş Rzayevlə söhbətimiz Veteranlar Şurasında, onun iş kabinetində baş tutdu. Əvvəlcədən razılaşdığımız vaxtda kabinetinə daxil olduq. General özünəməxsus hərbçi qətiyyətilə qalxıb bizimlə əl verib görüşdü. Öncə yaşı səksəni haqlamış hörmətli generalımızla hal-əhval tutduq.

- Çox sağ olun, yaxşıyam, - özünəməxsus tərzdə gülümsünən general dedi. - Sağlamlığımdan şikayətim yoxdur. Yaşımın xeyli olmasına baxmayaraq bu gün də müstəqil dövlətimizin möhkəmlənməsi, ordumuzun daha da qüdrətlənməsi, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsi üçün bilik və təcrübəmi istifadə eləməyə hazıram.



Generalla görüşə getməzdən öncə, təbii ki, biz də hazırlaşmışdıq. Və Dadaş müəllim haqqında internetdə maraqlı faktlara rast gəldik. Məlum oldu ki, onu, keçmiş Sovet ordusunun desant qoşunlarında şərəflə xidmət etmiş həmyerlimizi silahdaşları indi də böyük hörmətlə xatırlayırlar. Komandiri olduğu hərbi hissələrdə həmyerlimizin adı bu gün də hörmətlə çəkilir. Bütün bunlarla fəxr etməmək mümkün deyil.

***- Yoldaş general, sizin xidmətiniz hər bir azərbaycanlı zabit üçün əsl nümunədir. Bir qədər xidmət yolunuz barədə danışsanız, oxucularımız üçün maraqlı olardı. Necə oldu ki, Sovet ordusunun elitar qüvvələrindən olan desant qoşunlarında xidməti seçdiniz?***

- Bu saat da yaxşı yadımdadır: Sovet ordusunda xidmətə 1954-cü ilin 29 dekabrında bizim məşhur Biləcəri toplanış məntəqəsindən yola düşdük. Mən 1953-cü ildə o vaxtkı Azərbaycan Sənaye İnstitutuna daxil olmuşdum. İndi həmin institutun adı dəyişdirilib, Azərbaycan Texniki Universiteti adlanır. Bir il orada oxuduqdan sonra Sovet ordusu sıralarına əsgəri xidmətə çağırıldım. O zaman ali təhsil alanların hərbi xidmətdən möhlət hüququ yox idi.

Doğrusu, mən hələ erkən vaxtlarımdan böyük həvəslə istəyirdim ki, təyyarəçi olum. Bizim əslimiz Qərbi Azərbaycanın Dərəçiçək mahalındandır, uşaqlığım Goranboy rayonunun Dəlməmmədli qəsəbəsində keçib. Oradan 5-6 kilometr aralıda hərbi səhra aerodromu var idi. Uçuşlar gecə-gündüz davam edirdi, tez-tez təyyarələr aerodroma enib qalxırdı. Biz uşaqlar qaçardıq həmin aerodroma, təyyarələrə həvəslə baxardıq. Bir sözlə, təyyarəçi olmaq arzusundaydım.

Yadımdan heç vaxt çıxmır. Bizi artıq əsgərliyə aparırdılar. Biləcəridə olarkən gördük ki, hərbi təyyarəçilərə məxsus geyimdə bir kapitan əsgərləri öz hissəsi üçün qeyd edir. 5-6 nəfər özümə həmfikir tapmışdım, təyyarəçiliyə getmək istəyirdik. Həmin zabitə yaxınlaşdıq ki, bizi də təyyarəçilər hissəsinə götürsün. Vernixov familiyalı kapitan öz dəftərçəsində bizim familiyaları da qeyd elədi. Onunla qatara minib gəldik Belarusiyaya, Vitebsk şəhərinə. Burada diviziyanın qərargahı yerləşirdi. Gördük ki, burada hərbçilərin paqonları, petlisaları göy yox, qırmızı rəngdədir. Rus dilini də yaxşı bilmirdik. Məlum oldu ki, biz desant hissəsinə düşmüşük. Bir az dilxor olsaq da, sonradan bu qoşun növünə ömürlük bağlandıq. Bizi oradan 50-60 kilometr aralıdakı Borovuxa stansiyasında yerləşən desant alayına göndərdilər.

***- Desant qoşunlarında xidmət etmək sizə çətin olmadı ki? Axı bu qoşunlarda xidmət etmək o qədər də asan deyil...***

- Mən uşaqlıqdan fiziki cəhətdən möhkəm idim, Dərəçiçəyin dağlarında böyüyən uşaq necə olar?! Heç üç ay keçməmiş məni alayın nəzdindəki serjant (çavuş) məktəbinə seçdilər.

Orada biz düz bir il ciddi hazırlıq keçdik. Məktəbi bitirdikdən sonra serjant rütbəsi ilə məni bölükdə manqa komandiri təyin elədilər. Artıq əməlli-başlı komandalar verirdim, rus dilini öyrənmişdim, əsgərlərə rəhbərlik edirdim. O vaxt çavuşlara orduda çox böyük səlahiyyət verilmişdi. İstənilən vaxt "həyəcan" siqnalı ilə öz əsgərlərini qaldırıb hara desən, apara bilərdin. Əsgərlərlə fiziki hazırlıqdan tutmuş taktika, atəş hazırlığına qədər dərs keçirdik. Çox yaxşı xidmət edirdim. Manqamız həmişə birinci yeri tuturdu. Bir müddət sonra məni taqım komandirinin müavini təyin etdilər. Əsgərə əsas rəhbərlik eləyən çavuşlar idi. Sovet ordusunun sərkərdələrindən olan Mixail Frunzenin bir sözü o vaxt məşhur idi: orduya bir mən, bir də serjantlar rəhbərlik edirik.

1956-cı ilin yay ayları idi. Ordudan tərxis olunmağa yarım il qalmış birdən-birə bizi qərargaha çağırdılar. Məlum oldu ki, bizi Qazaxıstanda təzə açılmış məxfi Hərbi Hava Desantçıları Məktəbinə göndərirlər. Əvvəl razı olmaq istəmədik, hərbi xidməti bitirib evə qayıtmaq istəyirdik. Amma razılaşmağa məcbur olduq.

Burada oxumaq asan deyildi, amma mən çalışırdım ki, yaxşı oxuyum, azərbaycanlı adını uca tutum. Bu da komandirlərimin diqqətindən yayınmamışdı. Burada da məni ikinci kursda taqım komandirinin müavini təyin etdilər.

Həmin məktəbi sonradan Rusiyanın Ryazan şəhərinə köçürdülər və mən bu əfsanəvi məktəbin ilk məzunlarından oldum.

Tulada diviziya komadiri məni özünə adyutant götürmək istəyirdi. Adyutantların işindən xoşum gəlmədiyinə görə, doğrusu, bu vəzifədə xidmət etmək istəmədim. Oradan məni Yefremov şəhərindəki alaya taqım komandiri göndərdilər.

Harada xidmət etməyimdən asılı olmayaraq, həmişə işimə vicdanla yanaşmışam. Mənim taqımım, bölməm ən yaxşılarından olub.

***Bir il keçdikdən sonra Orta Asiyaya göndərilən leytenant Rzayev yenicə ailə qurmuşdu. Ancaq xidmət etdiyi alayda ailəlilər üçün şərait olmadığından bir dəfə yoxlamaya gəlmiş komandanın diqqətinə ailə-məişət şəraitinin dözülməz olduğunu çatdırır. Komandanlıq onun problemini anlaşıqla qarşılayır və leytenant Vətənimizdəki hərbi hissəyə göndərilir.***

- Mən 1970-ci ildə M.Frunze adına Hərbi Akademiyaya daxil oldum, - deyə Dadaş müəllim söhbətinə davam edir. - Amma bu mənə asan olmadı. O vaxt iki dəfə imtahan versəm də, məni göndərmədilər. Həmin dövrdə respublikamızın rəhbəri olan Heydər Əliyevə azərbaycanlı zabitlərə süni maneələrin yaradıldığını çatdırmışdılar. O işə qarışdıqdan sonra mən M.Frunze adına Hərbi Akademiyaya qəbul edildim.

**Olduqca maraqlıdır ki, əvvəlcə qəbul etmək istəmədikləri mayor Dadaş Rzayev akademiyanı əla qiymətlərlə bitirib. O, akademiyada təhsil alan 350 nəfərin arasında yeganə azərbaycanlı olub. O vaxt akademiyanın beş məzunu vaxtından əvvəl polkovnik-leytenant rütbəsi verilməklə birbaşa alay komandiri vəzifəsinə təyin edilibmiş. Onlardan biri də bizim həmyerlimiz olub.**

- Akademiyadan sonra məni Orta Asiyaya mexanikləşdirilmiş hərbi hissəyə komandir göndərirdilər. Bundan xəbər tutan Hava Desant Qoşunları komandanı, Sovet İttifaqı Qəhrəmanı general Vasili Margelov məni yanına çağırtdırdı. Kabinetində möhkəm danladı ki, sən desantçısan, niyə başqa qoşun növünə keçmək istəyirsən? Cavab verdim ki, xəbərim yoxdur, mən hərbçiyəm, haraya göndərsələr, oraya da gedərəm. O əmri dəyişdirtdi və mən Litvadakı 119 saylı paraşüt-desant alayına komandir təyin edildim. Buradakı vəziyyət əvvəlcə məni qane etmirdi. Amma komandirlik etdiyim bir il ərzində əlimdən gələni etdim ki, alay ən yaxşılardan olsun.

Sonra tale elə gətirdi ki, doğma Azərbaycanda xidmətə göndərildim, Bakıda alay komandiri, Gəncədə hava-desant diviziyası komandirinin birinci müavini vəzifələrində xidmət etdim.

Gəncədə dörd il xidmətdən sonra məni Ukraynanın Lvov şəhərindəki əlahiddə qırıcı hava-desant briqadasına komandir təyin etdilər. Bu briqada böyük idi, beş min nəfərdən ibarət şəxsi heyəti, 120-yə qədər hərbi vertolyotu var idi. Burada artıq general vəzifəsini daşıyırdım. Briqadanın döyüş hazırlığını daim yüksək səviyyədə saxlayırdım. Komanda verilsəydi, qısa zamanda istənilən ərazidə döyüş tapşırığını yerinə yetirməyə qadir idik.

Mən xidmətimi xaricdə də



davam etdirmişəm. 1982-ci ildə Sovetlər Birliyilə yaxşı münasibətdə olan Həbəşistana göndərildim. Orada desant briqadasının yaradılmasına kömək edirdim.

Dörd il Afrikada çalışdıqdan sonra SSRİ-yə qayıtdım. Mənə müxtəlif vəzifələr təklif edilsə də, valideynlərimin təkidilə Azərbaycana qayıtdım, indiki Səbail rayonuna hərbi komissar təyin edildim. Bu vəzifə heç də ürəyimcə deyildi və bir müddət sonra ordudan ehtiyata buraxıldım.

***- Azərbaycan müstəqillik qazandıqdan sonra yenə Sizin xidmətinizə ehtiyac duyuldu. Necə oldu ki, yenidən xidmətə qayıtdınız?***

- Azərbaycan 1991-ci ildə suverenliyini bərpa elədi. Amma həmin vaxtda Qarabağda müharibə də qızışırdı. Təbii ki, ehtiyatda olsam da, Vətənimizin çətin günündə hadisələrdən kənarda qalmaq mümkün deyildi. O vaxt məni Qarabağa Xalq Yardımı Komitəsinə dəvət etdilər. Bir hərbçi kimi təcrübəmdən yararlanmaq istəyirdilər. Məmnuniyyətlə bu işdə onlara kömək edirdim.

1991-ci ildə Müdafiə Nazirliyi yaradılanda rəhmətlik general-leytenant Valeh Bərşadlı nazir oldu, mən də onun müavini vəzifəsinə gətirildim. Hərbi işdə səriştəsi olmayan insanlar o zaman bizə çox mane olurdular. Buna baxmayaraq biz çalışırdıq ki, ağır gündə Vətənin işinə yarayaq. Ancaq Rəhim Qazıyev Müdafiə naziri təyin olunan kimi məni vəzifəmdən azad etdi.

Sonra general Bərşadlını Baş Qərargah rəisi təyin etdilər. O məni yenidən yanına çağırdı. Qərb rayonlarımızın müdafiəsini təşkil etməkdən ötrü orada korpus yaratmağın zəruriliyini söylədi və bu məsuliyyətli işi mənə həvalə etdilər. Mən bir papkamı qoltuğuma vurub Qazağa getdim.

O vaxt tanıdığım zabitləri xidmətə cəlb elədim. Rəhmətlik polkovnik Nəriman Mirzəyev, Hamlet Hüseynov, Xudu Xuduyevlə çətin bir işə girişdik. Qazax, Ağstafa, Tovuz rayonlarını ermənilər təzyiq altında saxlayırdılar. Bir faktı deyim ki, onda düşmən o ərazilərdə 12 sərhədyanı kəndimizi götürmüşdü. Biz həmin kəndləri ermənilərdən geri aldıq, camaat öz evinə-eşiyinə döndü. Sərhəd zonasında müdafiə işlərini tədricən möhkəmləndirdik.

Qərb bölgəsində ən ağır vəziyyət Gədəbəydə yaranmışdı. Vaxtilə Azərbaycanın olmuş köhnə Başkənd adlanan kənddə toplaşmış quldurlar Şınıx camaatına göz verib işıq vermirdilər.

***- Elə o barədə Sizdən soruşmaq istəyirdik. Başkənd əməliyyatı Qarabağ müharibəsi dövründə ən uğurlu döyüşlərdən biridir. Bu əməliyyat barədə danışmağınızı istərdik.***

- Bayaq dediyim kimi, Başkənd də vaxtilə ermənilərə verilmişdi və biz onu Azərbaycana qaytardıq. Bu kəndə yığılmış erməni quldurları təkcə Gədəbəyi yox, bütün qərb bölgəsini təhlükə altında saxlayırdılar. Gədəbəyin Şınıx bölgəsindəki bir neçə kəndə gedib-gəlmək mümkün deyildi. Düz dörd il idi ki, camaat o ərazilərdə əziyyət çəkirdi. Faktiki olaraq rayon iki hissəyə bölünmüşdü. Əgər onlar həmin ərazidəki digər yüksəklikləri də ələ keçirsəydilər, Daşkəsən, Şəmkir, Tovuz, Ağstafa, Qazax rayonları, bütünlüklə ölkəmizin qərb bölgəsi üçün təhlükə yarana bilərdi. Buna görə də ermənilər bu kəndə böyük önəm verirdilər, onu "Kiçik Qarabağ" adlandırırdılar. Yəni, Başkəndin düşməndən azad edilməsi strateji əhəmiyyət daşıyırdı.

Gədəbəyin Mutudərə kəndinin yandırılması səbir kasamızı daşırtdı. Məxfiliyi ciddi gözləməklə Başkənd əməliyyatını tam dəqiqliklə hazırladıq. Onun başlanmasının vaxtını məndən başqa heç kim bilmirdi. Kəşfiyyat işinə özüm şəxsən rəhbərlik edirdim. Düşmən mövqelərinin yerini dəqiqliklə müəyyən eləmişdik. Avqustun 8-də səhər saat 5-də artilleriyanın atəşilə hərəkətə keçdik. Əməliyyat o qədər dəqiq hazırlanmışdı ki, atdığımız mərmilərin hamısı düz hədəfi vururdu. Üç saat ərzində biz ərazini düşməndən təmizlədik. Ancaq bir müddət bu xəbəri ölkə ictimaiyyətinə çatdırmadıq. Ona görə ki, kəndi, ətraf yüksəklikləri əlimizdə saxlamaq lazım idi. Artıq o ərazilərdə lazımınca möhkəmləndikdən sonra xalq uğurlu əməliyyatımızdan xəbər tutdu.

***- Yoldaş general, Siz həm də müstəqil Azərbaycanın ilk Müdafiə nazirlərindən biri olmusunuz. Nazir işlədiyiniz dövrü necə dəyərləndirirsiniz?***

- O zaman olduqca qarışıq bir dövr idi, istədiyimizi gerçəkləşdirməyə mane olan çox idi. Ona görə mənə nazir vəzifəsi təklif ediləndə əvvəlcə razı olmadım. Mən nazir təyin ediləndə şəxsi heyət barəsində, silah və texnika haqqında məlumat istədim. Xeyli müddət dəqiq məlumat ala bilmədim. Sənəd üzrə guya 124 min zabit və əsgər var idi, ciddi araşdırmadan sonra məlum oldu ki, orduda vur-tut 27 min döyüşçü xidmət edir. Müharibə getdiyi bir vaxtda orduda ciddi dönüş yaratmaq çox çətin idi. Əslində vahid komandanlıq, nizam-intizam yox idi, fərarilik baş alıb gedirdi. Amma ermənilərə hər yandan güclü dəstək verirdilər. Bu da cəbhədəki vəziyyətə mənfi təsir göstərirdi. Bilirsiniz ki, Xankəndidəki məlum 366-cı alay ermənilərlə birgə Xocalı soyqırımının törədilməsində iştirak eləmişdi.

Bununla belə, həmin vaxt Sovet qoşunlarının Azərbaycandan çıxarılması böyük nailiyyət idi. Gəncədə yerləşən hava-desant diviziyası çox böyük qüvvə idi, 10 min şəxsi heyəti var idi. O diviziyanın komandiri Valeri Şerbak vaxtilə mənim tabeliyimdə xidmət eləmişdi. Onunla çox ciddi söhbət elədim. O, Moskva ilə danışdıqdan sonra diviziyanı çıxarmağa razı oldu. İki günə həmin diviziya hərbi yük təyyarələrilə Azərbaycanı tərk elədi. Bunu nazir olduğum dövrün əhəmiyyətli hadisələrindən hesab edirəm.

***- Dadaş müəllim, bu gün Silahlı Qüvvələrdə xidmət edən zabitlərimizə nəyi tövsiyə edərdiniz?***

- Birinci növbədə, zabit Vətənini sevməli, dövlətinə və dövlətçiliyinə sadiq olmalıdır. Çoxillik hərbi təcrübəmə əsasən, vurğulayım ki, istər əsgər, istər zabit, harada, hansı vəzifədə xidmətdə olmasından asılı olmayaraq doğma ana dilini, dinini, millətini, ölkəsini düşünməlidir. O, doğulub böyüdüyü torpağına bağlı olmalı, tarixini bilməli, öyrənməlidir. Zabit öz şərəfini həmişə uca tutmalıdır. Bir məqamı deyim ki, zabit tabe olmağı da bacarmalıdır. Ali Baş Komandanın, tabe olduğu komandanlığın hər bir əmrinə hər an hazır olmalıdır. Belə bir deyim var: komandirlik etmək istəyirsənsə, tabe olmağı da bacarmalısan. Tabe olmaq bacarığı özü bir mədəniyyətdir.

Hər bir komandir-zabit əsgərini qorumağa borcludur. Çünki komandir əsgərlərilə güclüdür. Həm komandir, həm əsgər - hər kəs hərbi nizamnamələrin tələblərinə uyğun xidmət keçməlidir. Zabit öz nümunəsilə tabeliyindəki döyüşçülər üçün örnəkdir.

***Söhbətimizin sonunda hörmətli generalımıza işinin çox olduğu məqamda imkan tapıb bizə müsahibə verməyə razı olduğu üçün minnətdarlığımızı bildirdik.***

**Əbülfət QASIMOV,**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Azərbaycanlı Odessanın yeni prokuroru təyin edilib




Ukrayna Baş prokurorunun əmrinə əsasən, Gündüz Məmmədov Odessa şəhərinin prokuroru təyin edilmişdir. Bu barədə AzərTAc-a Ukraynadakı Azərbaycanlı Gənclər İttifaqının (UAGİ) mətbuat xidmətindən bildirmişlər. Gündüz Məmmədov 1974-cü il oktyabrın 26-da Gəncə şəhərində anadan olmuşdur. Meçnikov adına Odessa Dövlət Universitetini bitirmişdir. Odessa şəhərindəki Primorsk rayonu prokurorunun köməkçisi, müavini, birinci müavini, Odessa şəhəri prokurorunun müavini, Kiyev Vilayət Şöbəsinin prokuroru, Ukrayna Prokurorluğu Akademiyasının baş elmi işçisi, Dnepr rayon İstintaq şöbəsinin rəisi vəzifələrində işləmişdir. Gündüz Məmmədov hüquq elmləri namizədi və Ukraynanın böyük ədliyyə müşaviridir.

### Moskvada erməni quldur dəstəsi həbs olundu



Rusiya polisi Moskva şəhərində ermənilərdən ibarət quldur dəstəsinin üzvlərini həbs edib. Onlar Rusiya Dövlət Duması deputatının köməkçisinə hücum etməkdə günahlandırılırlar.

Rusiya Daxili İşlər Nazirliyi bildirib ki, quldurlar 2013-cü ilin sentyabr ayında Moskvanın cənub dairəsində rus siyasətçiyə hücum ediblər və onun avtomobilini əlindən alıblar.

Hadisə ilə bağlı üç nəfər tutulub, onlardan ikisi Ermənistan vətəndaşıdır. Tutulanlardan "Makarov" tapançası, bir ədəd qeydiyyatsız tüfəng və 40 patron götürülüb. Oğurlanmış avtomobilin sənədləri də ələ keçib.

### Almaniyada casusluq qalmaqalı genişlənir



Almaniya hökuməti ABŞ xüsusi xidmət orqanları tərəfindən casusluq fəaliyyəti ilə bağlı qalmaqalda ilk diplomatik addım atmışdır.

Bu ölkənin rəsmi nümayəndəsi Şteffen Zaybert bildirmişdir ki, Amerikanın Berlindəki səfirliyində akkreditə edilmiş rezidentinin Almaniyanı tərk etməsi tələb olunmuşdur. Bu, İkinci Dünya müharibəsindən sonra ilk belə hadisədir. Zaybertin sözlərinə görə, amerikalı rezidentin Almaniyadan çıxarılması Federal Prokurorluğun icraatında olan casusluqla bağlı iki işin təhqiqatı, habelə ABŞ Milli Təhlükəsizlik Agentliyinin araşdırdığı məsələlərlə bağlıdır.

### İraq ordusu İŞİD qüvvələrinin hücumunu dəf edib



İraq ordusu iyulun 12-də İŞİD qüvvələrinin Anbar əyalətində yerləşən strateji əhəmiyyətli Xadita şəhərinə hücumunu dəf edib. Bu barədə İranın “Press TV” telekanalı məlumat yayıb. Məlumata görə, terrorçuların hücumunun dəf olunmasında həlledici rolu hava nəqliyyatı ilə vaxtında Anbar əyalətinin paytaxtı Ramadi şəhərinə göndərilmiş 3 min könüllüdən ibarət dəstə oynayıb.

İraq mətbuatı xəbər verir ki, ordu qüvvələri könüllülər ilə birlikdə İŞİD dəstələrinin bir çox istiqamətdə irəliləməsinin qarşısını almağa müvəffəq olub.

### Qəzza zolağında həlak olanların sayı 150 nəfəri keçib



Fələstinlilərlə İsrail ordusu arasında yenidən döyüşlər başlayıb. "Həmas"la toqquşmalarda 4 İsrail əsgərinin yaralandığı bildirilir. Fələstin tərəfindən itkilər barədə rəsmi açıqlama hələ verilməyib.

Bu arada yayılan məlumata görə, İsrailin pilotsuz hərbi təyyarəsi Qəzzanın cənubunda yerləşən Milli İslam Bankının binasını bombalayıb.

Qeyd edək ki, İsrail ordusunun Qəzzaya endirdiyi hava zərbələri nəticəsində 163 nəfər ölüb, 1085 nəfər isə yaralanıb.

Şənbə günü BMT Təhlükəsizlik Şurası hər iki tərəfi atəşi dayandırmağa çağırmışdır.

### Tripolidə döyüşlər gedir



Liviyanın paytaxtı Tripoli şəhərinin beynəlxalq hava limanı ərazisində qızğın döyüşlər gedir.

ANS PRESS-in məlumatına görə, hava limanına raket düşüb. Bundan sonra döyüşlər başlayıb. Liviya hökumətinin rəsmisi bildirib ki, döyüşlər islamçılar və liberal qüvvələr arasında gedir.

Qeyd edək ki, Liviya lideri Muəmmar Qəddafi devrildikdən sonra Liviyada sabitlik əldə etmək mümkün olmayıb.

### Hindistanda dünyanın ən hündür dəmir yolu körpüsü tikilir



Hindistanın Şimali Cammu və Kəşmir bölgələri arasındakı Cenap çayı üzərində 359 metr yüksəklikdə dəmir yolu körpüsü tikilir.

AzərTAc xarici KİV-lərə istinadla xəbər verir ki, körpünün inşasının 2016-cı ildə tamamlanması nəzərdə tutulur. Körpü Eyfel qülləsindən (300 metr) də hündürdə yerləşəcəkdir.

Dünyanın ən hündür dəmir yolu körpüsünü yerli mühəndislər inşa edirlər.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

*Gənc əsgərlərin hazırlığı*

# Vətənimizin mübariz döyüşçüləri olacaqlarına söz verdilər



***Azərbaycanın hazırkı müharibə şəraiti, yəni, torpaqlarımızın 20 faizinin işğalda qalması ordu sıralarına çağırılan gənclərimizdən məsuliyyətli olmağı və hərbi xidmətləri dövründə Vətəni qorumağın sirlərinə dərindən yiyələnməyi tələb edir. Doğrudan da, hər bir azərbaycanlı gənc üzərində doğulub boya-başa çatdığı Vətəni üçün, doğma milləti, xalqı üçün hər an mübarizəyə hazır olmalıdır.***

***Bu gün ordu rəhbərliyinin də hərbi hissə və bölmələrin cavabdeh zabitləri qarşısında qoyduğu başlıca məsələlərdən biri orduya çağırılan gənci həm Vətənimizin müdafiəsi üçün hazırlıqlı döyüşçü kimi yetişdirmək, həm də sabahkı cəmiyyətimizin layiqli vətəndaşı kimi formalaşdırmaqdır. Bu məqsədlə gənc əsgərlərin təlim keçdikləri hərbi bölmələrdə ciddi iş aparılır, şəxsi heyətin təlim-tərbiyəsində bütün imkanlardan istifadə edilir.***

Bu yaxınlarda gənc əsgərlərin təlim məşğələlərindən qeydlər götürdüyümüz "N" hərbi hissəsinin şərəfli döyüş yolu əslində burada həqiqi hərbi xidmətə başlayan gənclərimiz üçün layiqli örnəkdir. Elə müsahibə aldığımız cavabdeh zabit - polkovnik-leytenant Daşqın Bənnayev də müstəqilliyimizin ilk mərhələsində yaranmış bu hərbi hissədə əsgər kimi xidmətə başlayıb və şərəfli döyüş yolu keçib.

- Hərbi xidmətdə ilk qədəmlərini atan gənclər daim hərbi hissəmizdə yüksək diqqət və qayğı ilə əhatə olunurlar, - deyə "Azərbaycan bayrağı" ordenli zabit bildirdi. - Biz çalışırıq ki, gənclərimiz yüksək əhval-ruhiyyə və xoş ovqatla xidmətə başlasınlar. Gənc əsgər heyətinə təhkim edilən bacarıqlı bölmə komandirləri ilk günlər onlarla fərdi söhbətlər aparırlar. Belə söhbətlərdə əsas məqsəd əsgərin ailə vəziyyətini öyrənmək, onun peşə bacarığını və fərdi keyfiyyətlərini aşkar etməkdir.

Zabit söhbətimizdə bir məsələni xüsusi vurğuladı ki, əsgərlərlə keçirdiyi söhbətlərdə bir vaxtlar bu hərbi hissənin sıradan bir əsgəri olduğunu bildirir və hərbi hissənin Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatlarında əhəmiyyətli rolundan danışır. "Hər bir əsgərə tövsiyə edərdim ki, ordu həyatında yaşadıqları hər günün qədrini bilsinlər və bu gün dövlətimizin, xalqımızın orduya göstərdikləri etimadı doğrultmağa çalışsınlar".

Hərbi hissənin qarşısındakı meydanda əsl qələbəlikdir. Bir tərəfdə əsgərlərlə sıra hazırlığı məşğələsi keçirilir, digər tərəfdə isə iriçaplı pulemyotun döyüş xüsusiyyətlərinin öyrənilməsi ilə bağlı məşğələdir. Hər iki məşğələdə müşahidələr aparırıq və gəldiyimiz əsas qənaət ondan ibarətdir ki, gənc döyüşçülər komandirlərdən daha çox öyrənməyə səy göstərirlər. Elə komandirlərin də üzərinə böyük məsuliyyət düşür. Bu gün onların tabeliyində döyüş sənətinin nəzəri və praktik vərdişlərinə alışan gənclər bir müddətdən sonra təyin edildikləri bölmələrdə müvafiq vəzifələrini icra edəcəklər. Ən önəmlisi isə, onlara Vətənimizin sərhədlərinin hərbi təcavüzlərdən qorunması kimi çətin, məsuliyyətli və şərəfli vəzifə etibar ediləcək.



Fürsətdən istifadə edib məşğələlər zamanı gənc döyüşçülərimizin bir qrupundan müsahibə alırıq. İlk həmsöhbətimiz Lənkəran bölgəsindən orduya çağırılmış Vasif Əzimzadədir.

- Bu gün qürur hissi keçirirəm ki, doğma ordumuzda Vətənimizə bir əsgər kimi borcumu verirəm, - dedi əsgər. - Məncə, hər birimizin əsas borcu öncə orduda xidmət etmək, torpaqlarımızın müdafiəsində dayanmaq üçün döyüşçü kimi yetişməkdir. Hərbi hissəmizdə xidmət etmək üçün əlverişli imkanlar mövcuddur, həm sosial-məişət şəraitimizə, həm də döyüş və fiziki vərdişlərimizin artırılmasına komandanlıq tərəfindən böyük diqqət yetirilir. Bir faktı bildirim ki, boks idmanı üzrə yetərli nəticələr qazanmışam və yüksək fiziki hazırlığım döyüş vəzifəmi icra etməkdə mənə kömək edir. Elə buna görə də ordu həyatına hazırlaşan gənc nəslə müraciətlə demək istərdim ki, erkən yaşlarından idmana marağı artırsınlar.

Füzuli rayonundan hərbi xidmətə çağırılmış Orxan İsgəndərov isə bildirir ki, düşmənə nifrəti sonsuzdur, hər addımda düşməndən qisas almaq həsrətindədir. Axı nankor qonşularımız tərəfindən onun da ata-baba ocağı işğal edilib.

- Ön xətdə xidmətimi davam etdirmək, düşmənə qan uddurmaq üçün bacarıqlı döyüşçü olmağa can atıram, - dedi əsgər. - Çünki bu gün ordumuzun hərbi qüdrətinin güclənməsində bir əsgər olaraq mənim də zəhmətim vardır. Yalnız döyüş sirlərinə dərindən yiyələnməklə düşməndən intiqam almaq mümkündür. Qoy düşmən yaxşı bilsin ki, bu gün əsl döyüşçü kimi formalaşan Azərbaycan gənci ona hər an qan uddurmağa qadirdir.

- Valideynlərim müvəqqəti olaraq Moskvadadır, amma buna baxmayaraq hərbi xidmətə yaşım çatdığı üçün Vətənimə qayıtmağı və doğma ordumuzda xidmət etməyi qətiləşdirdim, - deyə gənc əsgər Zamiq Mirzəyev bildirdi. - Harada yaşasaq da, bu Vətənin övladıyıq. Torpaqlarımız son qarışına kimi işğaldan azad edilməyincə, hər bir azərbaycanlı döyüş qabiliyyətini gündən-günə artırmalıdır.

Müsahibə vermək istəyində olan başqa gənclərimiz də söz verdilər ki, qısa bir vaxtda döyüş vərdişlərini mənimsəməklə Vətənin müdafiəsinə və torpaqlarımızı işğaldan azad etmək üçün mübarizəyə hazır olacaqlar.



**Arif VAQİFOĞLU,**
**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

## Qan yaddaşımız

***Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

*Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
*Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.*
*Laçın (17 may 1992-ci il) - 1835 kv.km.*
*Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
*Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.*
*Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.*
*Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.*
*Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.*
*Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!**

## İdman

### Almaniya millisi dördüncü dəfə dünya çempionu adını qazandı



İyulun 13-də Braziliyada keçirilən futbol üzrə XX dünya çempionatına yekun vurulmuşdur. Qızıl medal uğrunda mübarizə aparan Almaniya və Argentina milli komandaları yaşıl meydana çıxmışlar.

Qalib matça əlavə olunmuş 30 dəqiqədə müəyyənləşmişdir. Görüşün 113-cü dəqiqəsində almaniyalı futbolçu Mario Götze hesabı açmışdır.

Beləliklə, rəqibini 1:0 hesabı ilə məğlub edən Almaniya millisi dünya çempionu olmuşdur. Bu, Almaniyanın dördüncü dünya çempionluğudur. Avropa təmsilçisi bundan əvvəl daha üç dəfə - 1954, 1974 və 1990-cı illərdə dünya çempionu olmuşdu.

### Hollandiya Braziliyaya 3 qol vurub bürünc qazandı



DÇ-2014-də üçüncü yerin sahibi müəyyənləşib. Azerisport.az xəbər verir ki, yarımfinalda Almaniya və Argentinaya boyun əymiş Braziliya və Hollandiya üz-üzə gəlib.

Matçda üç qol vurulub ki, onların da hamısına hollandlar seviniblər. Nəticədə, bürünc medalları Avropa təmsilçisi qazanarkən, mundial sahibləri sadəcə, dördüncü yerlə kifayətləniblər.

### Qadın voleybolçularımız Bolqarıstan yığmasına qalib gəlib



İyulun 11-də qadın voleybolçular arasında Avropa Liqası yarışlarının altıncı turu çərçivəsində Azərbaycan millisi ilk oyununu keçirmişdir.

AzərTAc xəbər verir ki, Azərbaycan Voleybol Mərkəzində millimiz Bolqarıstan yığması ilə qarşılaşmışdır.

Rumıniyalı baş hakim Tudor Popun idarə etdiyi görüşdə Azərbaycan millisi 3:2 hesabı ilə qalib gəlmişdir.

Hesabında 21 xal olan Türkiyə millisi qrupda liderliyini davam etdirir. Bolqarıstan 15 xalla ikinci, Sloveniya kollektivi isə 14 xalla üçüncü pillədə qərarlaşmışlar. Azərbaycan millisi isə 13 xalla dördüncüdür.

### Trek velosipedçilərimiz Fransa kubokunda fəxri kürsüdə



Azərbaycan velosipedçiləri Fransada "Fenioux Trophy Piste" kubokunda iştirak edib. Azerisport.az xəbər verir ki, velosipedçilərimizin çıxışı bu dəfə daha uğurlu olub.

Yığma komandamızın üzvü Olqa İsmayılova 500 metr məsafəyə sprint yarışlarında turniri 2-ci, 200 metr məsafəyə sprint yarışlarında isə 4-cü pillədə başa vurub. Qeyd edək ki, xanım idmançımız 1 gün öncə daha 1 gümüş medal qazanmış və bununla da reytinqinə 72 xal əlavə etmişdi.

Bu dəfə digər velosipedçimiz Yelena Pavluxina da fəxri kürsüyə qalxmağı bacarıb. O, 10 min metr məsafəyə skretçdə mübarizə aparıb və 3-cü nəticə göstərib.

### Azərbaycan cüdoçularının "Böyük dəbilqə" beynəlxalq turnirində uğuru



Tümendə cüdo üzrə "Böyük dəbilqə" beynəlxalq turniri başa çatıb.

Cüdoçumuz Elmar Qasımov (100 kq) bütün rəqiblərini məğlub edərək turnirdə birinci yeri tutub.

Yarışda İlqar Müşkiyev (60 kq) qazaxıstanlı Qusman Kirqizbayevə qalib gəlsə də, dörddəbir finalda Rusiya cüdoçusu Robert Mşvidabadzeyə uduzmuşdur. Təselliverici görüşə qatılan cüdoçumuz özbəkistanlı Şərafəddin Lütfullayev və Rusiya təmsilçisi Savvi Karakizidini məğlub edərək bürünc medala sahib olmuşdur.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

## Xarici hərbi xronika

### "Dozor-B" zirehli döyüş maşınının sınağı keçirilib

Rusiyanın Çuquyev təlim mərkəzində "Dozor-B" transportyorunun sınağı keçirilib. Morozov adına maşınqayırma üzrə konstruktor bürosunun sınaq şöbəsinin rəhbəri döyüş maşınının yüksək manevrli, möhkəm mühafizə sisteminə malik olduğunu və on bir nəfərə qədər desant daşımaq üçün nəzərdə tutulduğunu bildirib. Daha sonra hərbi ekspertlərin verdiyi məlumata görə, "Dozor-B" döyüş maşınında üç dəfə az yanacaq sərf edilir. Maşın Silahlı Qüvvələrin və Milli Qvardiya bölmələrinin döyüş imkanlarını daha da artıracaq.

### "Pantsir-C1" zenit-raket kompleksi

"Pantsir-C1" zenit-raket kompleksi Tula Konstruktor Bürosu tərəfindən hazırlanıb və bu maşın "Yüksək dəqiqli komplekslər" sırasına daxildir. Raket kompleksi 20 kilometrlik uzaqlıqda yerləşən hava hədəflərini məhv etməyə qadirdir. Raketin sürəti saniyədə 1300 metrə qədərdir. Ondan eyni vaxtda müxtəlif istiqamətlərə atəş açmaq olar. Həmçinin bu raket kompleksi yerüstü və dəniz sularında hədəfləri də məhv edə bilər.

### Gəmidənkənar işləri robotlar yerinə yetirəcəklər

Rəsmi dairələrin məlumatına görə, Rusiyanın Perspektiv Tədqiqatlar Fondu açıq kosmosda və yerdə xüsusi əməliyyatların aparılması məqsədilə antropomorf texniki-robot platformasının yaradılması üzrə layihənin maliyyələşdirilməsinə başlayıb. Bu layihənin əsas xüsusiyyətlərindən biri elmi-texniki məsələlərin həlli, süni əzələlər növündə müasir ötürücülərin, portativ qidalanma mənbəyi və bionik sistemi üçün hissiyyatlı sensorların hazırlanmasıdır. Android adlandırılan bu sistem surəti çıxarılmış kostyumun hərəkəti ilə idarə olunacaq. Onun manipulyatoru da olacaq. Operator nəinki dəqiqliklə androidə öz hərəkətlərini ötürəcək, həmçinin ona qarşılıqlı olaraq cavabını da verəcək. 2015-ci ildə layihənin ilk mərhələsinin başa çatması planlaşdırılır və onun səhra sınağının həyata keçiriləcəyi gözlənilir. Bu robotlar maneə xətlərini keçərək, müxtəlif alətlərlə bir çox əməliyyatları yerinə yetirəcəklər.

**Hazırladı:**
**Svetlana NƏSİBQIZI**

***Qayıbovların şəcərəsi XV əsrə gedib çıxır. Klassik şairlərimizdən olan Molla Vəli Vidadi də bu nəsildəndir. Çar ordusunda "Artillerya allahı" kimi tanınmış Əliağa Şıxlinskinin də bu nəslə qohumluğu çatır. Sərkərdənin sevimli həyat yoldaşı, ilk şəfqət bacısı Nigar xanım Şıxlinskayanın qızlıq soyadı məhz Qayıbova idi. Deməli, yazımın qəhrəmanı Fərrux ağa hörmətli bir nəslin davamçısıydı…***

*Nəsillərə nümunə*

# İlk azərbaycanlı hərbi pilot



Fərrux ağa 1891-ci il oktyabrın 2-də, elə soyadı qədər şöhrətli bir kənddə - Qazax qəzasının Qıraq Salahlı kəndində doğulmuşdu. Atası Məmmədkərim ağa da hərbçi idi. O, imperator adına Qafqaz Leyb-Qvardiya Konvoy Eskadrosunun dördüncü müsəlman taqımının yunkeri idi. 1877-ci il iyulun 27-də imperatorun əmri ilə ordu sıralarında uzun illər nümunəvi xidmətinə görə, ona gizir rütbəsi verilmişdi. Sonrakı illərdə Məmmədkərim ağa Qayıbov Qazax və Yelizavetpol qəzalarında məhkəmə rəisi, Cavanşir və Yelizavetpol quberniyalarında sahə polis rəisi vəzifələrində çalışmışdır. 1894-cü il avqustun 30-da əla xidmətinə görə, Məmmədkərim ağa üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif olunmuşdur.

Deyirlər, atanın taleyi də oğluna bənzəyir. Fərrux ağanın atası dünyadan nakam köçür. Atasını çox erkən itirən Fərrux ağa dövrünün görkəmli maarifçisi olan əmisi Səməd ağa Qayıbovun himayəsində böyüyür.

Kənddə 5 sinifli rus-azərbaycan məktəbini bitirir, sonra məşhur sərkərdə Əliağa Şıxlinskinin məsləhəti ilə Tiflis Kadet Korpusunda oxuyur. 1910-cu ildə oranı əla qiymətlərlə bitirir və üçillik Peterburq Konstantin Topçuluq Məktəbinə daxil olur. Burada da ən çalışqan tələbələrdən olur, hətta sərrast atıcılıq qabiliyyətinə görə ilk mükafatını alır.

Tarixi mənbələrə əsasən, bir döyüşdən sonra almanlar "Fərrux ağa Qayıbovun qəhrəmanlığının təsviri" adlı hesabat da yazıblar…

1913-cü ildə hərbi təhsilini bitirən Fərrux ağa xidmət etmək üçün 39-cu artilleriya briqadasına göndərilir, sonradan isə məşhur "İlya Muromets-16" ekipajına qəbul edilir. Birinci Dünya müharibəsi başlayanda, onu Qərb cəbhəsindəki XI aviasiya korpusuna göndərirlər. Qayıbov 1916-cı il sentyabrın 12-də ordunun qərb cəbhəsi qərargahının tapşırığı ilə Borunaya hücuma başlayır və almanların mövqelərini bombardman edir. Onun təyyarəsinə qarşı 4 alman qırıcısı hücuma keçir. Qayıbov onların üçünü məhv etməyə nail olsa da, qəflətən aldığı zərbədən həlak olur. Almanlar bu döyüşdə təyyarəçinin igidliyinə heyran qalırlar. Səhəri gün alman təyyarələrinin səpələdiyi vərəqlərdə Qayıbovun və heyətinin qəhrəmancasına vuruşaraq həlak olduğu yazılırdı. Almanlar qəhrəman təyyarəçinin məzarı başında yaylım atəşi də açırlar.

Fərrux Qayıbov Belarusun Boruna qəsəbəsi yaxınlığındakı alman məzarıstanında uyuyur…

Fərrux ağanın igidliyi almanları elə təəccübləndirib ki, onu və heyət üzvlərini şərəflə, yaylım atəşi ilə dəfn ediblər. 93 il sonra xüsusi icazə ilə orada dəfn olunan əsgərlərin məzarını qaydaya salmağa gələn almanlar Fərrux ağa və təyyarə heyətinin qəbirləri ilə də rastlaşıblar. Qorunub saxlanılan kitaba əsasən, bu məzarların qəhrəman pilotlara aid olduğu aydınlaşıb. Almanlar özlərininki ilə birgə bu məzarları da təmir etdiriblər.

Yaxın zamanlara qədər Fərrux ağa Qayıbovun dəfn olunduğu yer naməlum qalırdı. Belaruslu könüllülər Boruna qəsəbəsi yaxınlığındakı alman məzarıstanında Fərrux Qayıbovun məzarını da aşkarlayıblar.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

**P.S.** *Bu yazıda hərb tariximizin tədqiqatçısı Şəmistan Nəzirlinin "Azərbaycanın ilk təyyarəçisi Fərrux ağa Qayıbov" adlı kitabından istifadə edilib.*

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki-üç dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 239
Nüsxə 4570